**ZAKİR BAYRAMLI**

## DARIXMIŞAM

Neçə vaxdır çatmır mənə nübarı,
Ürəyimdə kök bağlayıb qubarı.
Yağı düşmən dərir bağdan "o barı",
Kəhər atlar həsrət qalıb qırmanca,
"Şuşa " üçün  darıxmışam yamanca.

Unudulub gözəl Turşsu yaylağı,
Qan axıdır gözdən İsa bulağı.
Viran qalıb Xan qızının oylağı,
Çatmır ora hələ səsim, harayım,
"Şuşa" üçün  gərək yollar arayım.

Əcdadların izi qalıb o yerdə,
Neçə düşmən gözü qalıb o yerdə.
"Molla Pənah" sözü qalıb o yerdə,
Xarı bülbül fəqan edir qəfəsdə,
Şuşa deyir ölərkən son nəfəsdə.

Sapındılar atlar "Cıdır düzü"ndən,
Yayındılar oxlar düşmən gözündən.
Məğlub olduq arxasızlıq üzündən,
Yağıların qanın töküb içmədik,
Şuşa üçün canımızdan keçmədik.

## ŞƏHİD ANASI

Kədərli biçimdə, qəm libasında,
Bir ana, ümidlə yolu süzürdü.
Sönüb qaralmışdı "od sobasında",
Yolun sonsuzluğu onu üzürdü.

Kim idi bu ana, nə idi dərdi?
Niyə dayanmışdı yol kənarında?
Bir vaxt dərdsizlikdən deyib-gülərdi
İndisə donmuşdu qan damarında.

Gəldim yaxınına, halını sordum,
Qayğıyla soruşdum dərdini ondan.
Elə bil ananın qəlbini yardım,
Özüm də kövrəldim qopan ahından.

Ağlaya-ağlaya açdı dərdini,
Danışdı çəhbhəçi oğlanlarından
Ana itirmişdi iki mərdini,
Söz açdı onların sağ anlarından.

Cəbhədən bəd xəbər gəlmişdi ona,
Dönmüşdü leysana gözünün yaşı,
Yaman sarsılmışdı xəbərdən ana,
Düşmən bitirmişdi iki qardaşı.

Düşmənlə döyüşdə amansız olmuş,
Ananın bu qoşa ciyər parası.
Şəhidlik zirvəsin can verib almış,
Ananın bu iki məğrur balası.

Şəhid anasıydı bu məsum qadın,
Oğullar vermişdi Vətən yolunda.
Yaddan çıxarmışdı bəlkə öz adın,
Övlad axtarırdı boş xəyalında.

Barışmaq istəmir bu dərdlə ana,
Hələ də ümidlə yola baxırdı.
Sanki yol vermişdi bu dərdi ona
Yola gözlərindən yaş axıdırdı.

Övlad böyütmüşdü min bir əzabla,
Vətənə layiqli igid və qorxmaz.
Çəkdilər sınağa ağır hesabla
Ölənlər heç zaman ayağa qalxmaz.

Bu məğrur anaya elə gəlirdi,
Ölməyib, sağdırlar hələ oğullar.
Əsil həqiqəti ana bilirdi,
Şəhidlər hər zaman diri olurlar.

Baxıb heyran oldum bu mərd insana,
Ananın önündə diz üstə çökdüm.
Mənasız göründü təsəllim ona,
Əyilib sakitcə əlindən öpdüm.

## DÜNYAMIZA YAZ GƏLƏNDƏ

Qış yığışar, köç eyləyər,
Günəş göydən zər ələyər.
Quzeylər də güneylənər,
Dünyamıza yaz gələndə.

Qar əriyər buxar olar,
Suya dönüb axar olar.
Hər yan axar-baxar olar,
Dünyamıza yaz gələndə.

Yağış yağar narın-narın,
Bağlar içər, verər barın.
Əsirgəməz torpaq varın,
Dünyamıza yaz gələndə.

Yaşıllıqlar örtər yeri,
Bolluq olar müjdələri,
Köçən quşlar dönər geri,
Dünyamıza yaz gələndə.

Güllər açar, ləçəklənər,
Dağlar, düzlər göyçəklənər.
Çox arzular gerçəklənər,
Dünyamıza yaz gələndə.

Duman qalxar, dağ görünər,
Təzələnər həm ömürlər.
Gecə-gündüz tən bölünər,
Dünyamıza yaz gələndə.

Fəsillərin yazı yaxşı,
Gözəl olur hər naxışı.
Zakirin var öz baxışı,
Dünyamıza yaz  gələndə.

## SƏNƏ  YARIM  SÖYLƏDİM  Kİ...

Sənə yarım söylədim ki,
Sənin yarın ola bilim.
Keçim ömür yollarından,
Həyatında qala bilim.

Sənə yarım söylədim ki,
Arzuların çiçəklənsin.
Yel vurmasın çiçəkləri,
Hər istəyin gerçəklənsin.

Sənə yarım söylədim ki,
Əhdimizə and içəsən.
Gözəl, məsum sevgimizə,
Sədaqətdən don biçəsən.

Sənə yarım söylədim ki,
Qaçmayasan qınağımdan,
Sınağımdan keçə-keçə,
Nurlanasan çırağımdan.

Sənə yarım söylədim ki,
Öz yarından yarıyasan.
Günüm keçə sənin ilə,
Mənlə birgə qarıyasan.

Sənə yarım söylədim ki,
Həsrətimi bitirəsən.
Mən Zakirə könül verib,
Vüsalına yetirəsən.

## QOCALIQ

Qocalıq düşgünlük, miskinlik deyil,
O çox hörmət ilə aramla gəlir.
Susub dinməməyi küskünlük deyil,
Keçdiyi yollara baxıb dincəlir.

Hamının ömründə bir naxışdır o,
Gəncliyi pərişan qoyur həmişə.
Arxaya boylanan bir baxışdır o,
Baxır içimizdən qopan keçmişə.

Azad quşa dönüb, gəzir dünyanı,
Yoluxur hamıya xəstəlik kimi.
Bu dərd min illərdir əzir dünyanı,
Gəlmir xoşumuza bəzən görkəmi.

Qocalıq müdriklik, kamillik çağı,
Ömrün başı qarlı dağlıq dövrüdür.
Bütün fəsillərin bar verən bağı,
Nəsildən nəsilə qalan körpüdür.

Çapıb köhlənini, ötüb illəri,
Rast olub acıya, düşüb şirinə.
Müdrik kəlamlarla öpüb dilləri,
Dönüb şairlərin gözəl şerinə.

İnsan qocaldıqca ağır tərpənər,
Gənclər hörmət edib, baş əyər ona.
Yenicə dil açan məsum körpələr,
Babamsan, nənəmsən söyləyər ona.

Əfsus qocalığı hörmətdən salan,
Özünə qapanmış qocalar da var.
Övlad qayğısından kənarda qalan,
Özgəyə tapınmış qocalar da var.

Gəncliyi mənasız vurmayın başa,
Meşşan təbiətdə yanar qocalıq.
Sağlam həyatınız dəyməsin daşa,
Yaman kövrək olur, sınar qocalıq.